# AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATININ PERSPEKTİV İSTİQAMƏTLƏRİ

**Z.İ.SƏMƏDOVA**
*zaxra.samedova@hotmail.com*

*İnsanların ərzaq tələbatını ödəmək üçün Kənd təsərrüfatının inkişafına nail olmaq lazımdır. Bu sahədə aparılan işlər ölkə iqtisadiyyatına öz töhvəsini verməkdədir. Ərzaq təhlükəsizliyi və dövlətin kənd təsərrüfatında apardığı islahatlar nəticəsində əldə olunan nailiyyətlər geniş şərh edilmişdir. Məqalədə, həmçinin dövlətin kənd təsərrüfatının inkşafı üçün bu sahəyə göstərdiyi qayğıdan da bəhs edilir.*

***Açar sözlər:*** *Kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, subsidiyalar, Aqrar -sənaye kompleksi.*

İnsanların daim artan ərzaq tələbatını ödəmək üçün cəmiyyətin inkşafının ilkin dövründən indiyədək dünya iqtisadiyyatının əsas çağırışlarından biri olaraq davam edir. Odur ki, kənd təsərrüfatını inkşaf etdirmək hər bir ölkə qarşısında prioritet vəzifələrdən biridir. Kənd Təsərrüfatı Azərbaycan iqtisadiyyatında neft və tikinti sahələrindən sonra üçüncü ən iri sahə olduğu üçün iş yerləri ilə təminatda da böyük pay sahibidir. Azərbaycanın sosial -iqtisadi və siyasi problemlərinin həllində, regionlarda yaşayan insanların məşğulluğunda kənd təsərrüfatı xüsusi rola malikdir. Dünya iqtisadiyyatında yaşanan proseslərin Azərbaycan iqtisadiyyatına mənfi təsiri nəticəsində iqtisadiyyatın bir çox sahələrində işini itirən insanların yenidən kənd təsərrüfatına üz tutması buna bariz nümunədir. Hələ sovetlər dövründə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə geridə qalmış Respublikadan böyük potensiala malik Aqrar-Sənaye kompleksinin formalaşdırıldığı dinamik inkşaf edən ölkəyə çevrildi.

Müstəqilliyimiz əldə edildikdən sonra da ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə böyük tarixi əhəmiyyətə malik aqrar islahatlar həyata keçirilərək kənd təsərrüfatının dayanıqlı inkişafı üçün möhkəm baza yaradıldı.

Hazırda respublikamızda kənd təsərrüfatının əmək tutumlu sahələrində böyük işlər aparılır ki, bu da adı çəkilən sektorda daha çox insanların işlə təmin olunmasına şərait yaradacaq. Müstəqillik illərinin əvvəlində kənd təsərrüfatının inkşafına nəzər saldıqda 1992- 1995-ci illərdə kənd təsərrüfatında ümumi məhsul istehsalı hər il orta hesabla 12% aşağı düşdüyü halda 1996-cı ildə davamlı artaraq 2015-ci ildə 6,6% təşkil etmişdir. 2015-ci ildə heyvandarlıq məhsulları üzrə artım 2,5 %, bitkiçilik üzrə artım 11,3 % olmuşdur. Hətta 2016cı ilin iqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, Respublikada ÜDM-in azalması fonunda kənd təsərrüfatında 3,1 % artım qeydə alınmışdır. Bu göstəricilər əsas verirdi ki, Azərbaycanın kənd təsərrüfatındakı artımı davamlı ola bilər. Odur ki, bu sahənin inkşafı üçün respublikamızda çox böyük islahatlar aparılmağa qabaqcıl dövlətlərlə əməkdaşlıq edilərək onların iş təcrübəsindən istifadə nəticəsində son dövrlərdə kənd təsərrüfatı sahəsində hərtərəfli inkşafa start verilib. Ölkəmizdə Aqrar sektora qoyulan investisiyaları ilbəil artırmaqla dövlətimiz kənd təsərrüfatının inkşafına stimul yaradır. Belə ki, yeni texnikaların alınması, subsidiyaların ayrılması, aqroxidmət sahələrinin açılması, güzəştli şərtlərlə gübrə, yanacaq, lizinqlərinin verilməsini buna nümunə göstərə bilərik. Bütün bunların sayəsində məhsul istehsalı artır və bu artım yeni emal müəssisələrinin yaradılmasına tələbatı zəruriləşdirir. Bu sahədə işləyən işçilərin sayı və ümumi məşğulluqda payı





getdikcə artmaqda davam edir. Bütün bunlar bir daha kənd təsərrüfatımızın inkşaf yolunda olmasını təsdiq edir. Zaman keçdikcə kənd təsərrüfatının inkşafı ölkə iqtisadiyyatında öz mühüm mövqeyini qorumaq üçün kənd təsərrüfatı məhsullarının emal sahələrini inkşaf etdirməkdə, ticarət və təchizat məsələlərini təkmilləşdirməkdə, kənd təsərrüfatı istehsalçılarına xidmətlərin təşkilində, əhalinin məşğulluğunun yüksəldilməsi və işsizliyin azaldılması, sosial və infrastruktur sahələri inkşaf etdirmək yolu ilə kəndlə şəhər arasında fərqlərin ardan qaldırılması istiqamətində fəaliyyət sürətləndirilməkdədir.

Bu məqsədə nail olmaq üçün 2016cı il 16 mart tarixində Azərbaycan Respublikası Prezidenti sərəncam imzalamışdır. Sərəncam "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" adlı sənəddə kənd təsərrüfatının prioritet elan olunmasından ibarət idi.Bu bir daha təsdiq edirdi ki, kənd təsərrüfatının dayanıqlı inkşafına nail olmaq və onun rəqabətqabiliyyətli sektora çevrilməsi strateji hədəf olmalıdır. Məhz bu hədəfə çatmaqla Azərbaycanda şoxsahəli kənd təsərrüfatının inkşafına və ərzaq təhlükəsizliyinin təmin olunmasına nail olunacaqdır. Ərzaq təhlükəsizliyi -müəyyən keyfiyyət standartları çərçivəsində əhalinin qida məhsullarına olan tələbatının fasiləsiz, uzunmüddətli və dayanıqlı şəkildə ödənilməsini təmin edən tədbirlər kompleksidir. Ərzaq təhlükəsizliyi elementlərinə ərzaq məhsullarını mövsüm, hava və digər amillərlə bağlı olan risklərdən qorumaq, dayanıqlığını və milli ərzaq sisteminin istehsalın genişləndirilməsi rejimində inkşafı daxildir. Ərzaq təhlükəsizliyi problemi digər dövlətlərdə olduğu kimi Azərbaycanda da milli təhlükəsizliyin mühüm tərkib hissəsinə çevrilib.Yoxsulluğun azaldılması, ərzaq məhsullarından istifadənin səmərəliliyinin artırılması bu problemin həlli yolarıdır. Bu məsələlərin həlli yuxarıda qeyd etdiyimiz problemlərin aradan qaldırılması üçün əlverişli mühüt yarada bilər.

Hesablamalara görə 2050-ci ilədək 9,3 milyard nəfər olması gözlənilən dünya əhalisinin qidalanması üçün ümumi ərzaq istehsalının təxminən 70% artırılması lazım gələcək. Bunun üçün ərzaq məhsullarının miqdarca artırılması ilə yanaşı onun keyfiyyətli və sağlam məhsullar olması da diqqət mərkəzində olmalıdır. Bu səbəbdən aclığın ləğv edilməsi, ərzaq təhlükəsizliyinin və kənd təsərrüfatının dayanıqlı inkşafının təmin edilməsi dünya ölkələri qarşısında duran əsas məqsədlərdən biridir. Ölkəmizdə də bu istiqamətlərdə çox böyük işlər görülməkdədir. Belə ki, qlobal urbanizasiya proseslərinin sürətlənməsi və 4-cü sənaye inqlabının başlanması dövründə aqrar sektorun istər strukturunda, istərsə də rolunda nəzərə çarpacaq dərəcədə dəyişikliklər baş verir. Torpaq və su resurslarının məhdudluğunu nəzərə alsaq intensiv istehsal üsullarının kənd təsərrüfatına tətbiqi eyni zamanda yeni texnologiyalardan istifadə edilməsi zamanı bu sahənin dayanıqlı inkşafına nail olmaq olar.

1990 – 1995-ci illərdə ölkədə kənd təsərrüfatı məhsullarının istehsalının həcmində kəskin azalma müşahidə olunsa da 1995-ci ildən sonra ölkəmiz bu sahədə davamlı artıma nail oldu. Artıq son illərdə aparılan kompleks işlərin nəticəsidir ki, Azərbaycan müasir inkişaf mərhələsinə keçib. Dövlətimizin kənd təsərrüfatının inkşafı ilə bağlı qəbul etdiyi qərarlar ən müasir tənzimləmə və dəstək mexanizmlərinin ölkəmizdə tətbiq olunmasına yol açdı. Ölkəmizdə aqrar islahatlar

aparıldı. Bu islahatların əsasını iqtisadiyyatın şaxələndirilməsi, modernləşdirilməsi, neftdən asılılığın azaldılması və fermerlərin maddi rifahının yüksəldilməsi təşkil edir. Təsadüfü deyildir ki, hələ 12 yanvar 2015ci ildə Prezident İlham Əliyev 2015-ci ili ölkəmizdə "Kənd Təsərrüfatı" ili elan etməklə bu sahənin inkişafı üçün aparılan təbliğatlar aqrar sahədə 2015-ci ildən həqiqi nəticələrini verməkdədir. Təkcə Taxıl istehsalının ötən illərlə müqayisədə artımı ölkə üzrə ən yüksək həddə çatmışdır.

Son illərin iqtisadi göstəricilərinə nəzər salsaq bir daha görərik ki, kənd təsərrüfatında istehsal göstəriciləri davamlı olaraq yüksəlib. 2015-ci ildə 2999,0 min ton taxıl istehsal olunmuşdur ki, bu da 2014-cü illə müqayisədə 25,8% çoxdur. Həmin illərin müvafiq dövrü ilə müqayisədə 2,5% çox kartof, 7,2 % çox tərəvəz, 9.9% çox bostan məhsulları 4,2 % çox meyvə və giləmeyvə, 22,1% çox yaşıl çay yarpağı, 6,3 % çox üzüm yığılmışdır. 2015-ci ildə heyvandarlıq məhsulları üzrə artım 2,5 %, bitkiçilik məhsulları üzrə artım 11,3 % olmuşdur.

Nəhayət, 2015-2019-cu illərin kənd təsərrüfatı məhsulları istehsalının dinamikasına nəzər salsaq bir daha bu sahədə inkşafın yüksək səviyyəyə doğru istiqamətlənməsini qeyd etmək olar.

Heyvandarlıq məhsullarının hamısında da artım qeydə alınır. Dövlət damazlıq heyvanların alınması üçün 15 milyon manat vəsait ayrılmışdır ki, bu da həmin sahədə istehsal olunan məhsulun artımına öz təsirini göstərməkdədir. Əkinçilik sahəhəsinin inkşafı üçün subsidiyaların qiymətini xeyli artırmaqla dövlətimiz əkinçilikdə istehsalın həcminin xeyli artımına səbəb olmuşdur. Beləliklə, dövlətimizin Kənd Təsərrüfatının modernləşdirilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi nəticəsidir ki, aşağıdakı diaqramlardan göründüyü kimi məhsul istehsal artmış, bu sahədə ÜDM-in ümumi iqtisadiyyatda payı yükşəlmiş, bir sözlə aqrar sahənin güzəştli inkşafına nail olunmuşdur.





**Kənd təsərrüfatı məhsulları istehsalının artım dinamikası (2015=100)**




**Kənd təsərrüfatında yaradılan əlavə dəyərin ölkə üzrə ÜDM-də payı**




2015 -2019-cu illərdə kənd təsərrüfatında yaradılan əlavə dəyərin ölkə üzrə ÜDM- də payını göstərən dinamikada 2019-cu ildə kəskin artım müşahidə olunur.

Bu nəticələr əhalinin daxili bazarda əldə olunan nəticələri sayəsində maddi rifah halının yaxşılaşdırılması ilə yanaşı, qeyri-neft ixracının artırılmasında da əhəmiyyətli rol oynayıb.

Bütün aparılan islahatlar elmi yanaşmalara söykənərək fermerlərin və kənd zəhmətkeşlərinin mənafeyinə xidmət etmək strategiyasına əsaslanır. Kənd təsərrüfatının irəliyə doğru inkşafını təhlil etsək, bu sahədə görülən işlərin 3 prinsipə əsaslanaraq aparılmasını qeyd edə bilərik.

1. Kəndli və fermerlərə yaxınlıq.
2. Səmərəli idarəçilik.
3. İnnovasiyaların tətbiqi.

Müasir kənd təsərrüfatının inkşafında bu prinsiplərə əsaslanaraq görülən işlər səmərəli nəticələr verməkdədir.

Azərbaycanda müasir kənd təsərüfatının inkşafında böyük naaliyyətlərin əldə edilməsində əsas səbəblərdən biri bu sahənin idarə edilməsində düzgün istiqamətdə işlərin aparılması və bu işlərin yerinə yetirilməsində dövlətimizin dəstəyi, rəhbər işçilərin daim zəhmətkeşlərin yanında olması, eyni zamanda

onların maarifləndirilməsi istiqamətində aparılan təbliğatların nəticəsidir desək yanılmarıq.

İdarəetmə sistemində kənd təsərrüfatı nazirliyi 5 əsas istiqamətdə fəaliyyət göstərir.

1.Aqrar təhlil.
2. Aqrar həllər.
3.Aqrar bilik və bacarıqlar.
4.Aqrar dəstək.
5.Aqrar ticarət.

Aqrar təhlil dedikdə - bu sahədə qiymətləndirmə və proqnozlaşdırmanın aparılması, proqram və layihələrin işlənməsi. Bu məqsədlə nazirliyin tərkibində Aqrar Tədqiqatlar Mərkəzi fəaliyyət göstərir.

Aqrar həllər dedikdə - kənd təsərrüfatında başlıca məqsədə çatmaq üçün görülən tədbirlərdir ki, bu tədbirlər innovativ istehsal, idarəetmə texnologiyalarının, müasir və mütərəqqi metod və həllərin tətbiqindən ibarətdir. Bu həlləri həyata keçirmək üçün Aqrar Elm və İnnovasiya Mərkəzi formalaşdırılıb. Bu mərkəzin məqsədi zəhmətkeşlərə və fermerlərə innovativ yenilikləri şatdırmaq, aqrar elmin modernləşdirilməsini təmin etmək, bir sözlə institusional islahatlar aparmaqdır.

Aqrar bilik və bacarıqlar – müasir dövrü "Biliklər əsri" adlandırırlar. Aqrar sahənin dayanıqlı inkşafı üçün kadrların bilik və bacarıqlarının rəqabətqabiliyyətliliyi təmin olunmalıdır. Bu məqsədlə Azərbaycan Dövlət Aqrar Universitetinin təlim planları və proqramları dünyanın qabaqcıl universitetləri ilə əməkdaşlıq nəticəsində təkmilləşdirilmişdir.

Aqrar dəstək – məhsul istehsal edən zəhmətkeşlərə stimul yaratmaq üçün dövlət onlara az xərclə şox gəlir əldə etmək imkanı yaratmış, bunun üçün istehsalçılara son 10 ildə müxtəlif dəstək tədbirləri üzrə 1,2 milyard manata yaxın subsidiya ödəmişdir. Aqrar sektorun bütün istiqamətlərdə inkişafı üçün dövlət dəstəyi bu gün də davam etdirilir. Subsidiyaların verilməsində şəffaflığı və çevikliyi təmin etmək üçün, eyni zamanda aqrar sahədə görülən işlərə nəzarət üçün nazirlik tərəfindən yaradılan "Elektron Kənd Təsərrüfatı" informasiya sisteminin tətbiqi böyük rola malikdir.

Aqrar ticarət – Kənd təsərrüfatı sahəsində hazırda iqtisadi fəallığın yüksəldilməsi bu sahəyə göstərilən qayğı nəticəsində məhsul bolluğuna zəmin yaratmışdır. Fermerlər üçün bazar şəraitinin yaxşılaşdırılması, məhsulların satılmasına, satış zamanı yaranan problemlərin qarşısının alınmasına, dövlət öz qayğısını əsirgəmir. Bu məqsədlə Kənd Təsərrüfatının nəzdində Dövlət Aqrar ticarət şirkəti yaradılıb.

Azərbaycanın iqtisadiyyatının bu günkü uğurları və nailiyyətləri ölkəmizin dinamik inkşafının göstəricisidir. Bu inkşafda Aqrar sahədə əldə olunan nailiyyətlərin xüsusi payının olması danılmazdır. Ölkəmizin inkşaf tərəqqisi və əhalinin maddi durumunun yaşılaşdırılması dövlətimizin məqsədyönlü siyasətinin bəhrəsidir. Dövlət başçısı cənab İlham Əliyevin bəyan etdiyi kimi "Azərbaycanın dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı durur. Bütün Azərbaycan xalqının ərzaq təhlükəsizliyinə töhfələr verən, eyni zamanda xalqın ərzaqla təmin olunmasını davamlı şəkildə artırmaq kimi ağır məsuliyyəti öz üzərinə götürən





kənd əməkçiləri və fermerlər daim dövlət qayğısı ilə himayə olunmaqdadır.

1 noyabr Kənd Təsərrüfatı işçiləri günü kimi qeyd edilməsi də bu qayğının bariz nümunəsidir.

**Ədəbiyyat**


1. "Azərbaycan respublikasında kənd təsərrüfatının inkşafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublika Prezidentinin sərəncamı. Bakı, 11 aprel 2017.
2.İbrahimov İ. "Aqrar iqtisadiyyatın aktual problemləri" Bakı, 2002.
3.Salahov S. "Aqrar sahələrin dövlət tənzimlənməsi problemləri " Bakı 2004.
4. Salahlı N. Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun inkşafı: Kənd Təsərrüfatı Bakı, 2018.
5. htt://www stat/ gov/az
6 .http//www aqro/gov.az.
7. http//www iqtisadiislahat.orq.az


З.И.Самадова

**ПЕРСПЕКТИВНЫЕ НАПРАВЛЕНИЯ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В АЗЕРБАЙДЖАНЕ**

**Резюме**

*Необходимо добиться развития сельского хозяйства, чтобы удовлетворить продовольственные потребности людей. Проводимая в этой области работа способствует развитию экономики страны, в статье широко освещаются достижения в области продовольственной безопасности и государственных реформ в сельском хозяйстве. В статье также обсуждается забота государства о развитии сельского хозяйства в этой области.*

***Ключевые слова:*** *сельское хозяйство, продовольственная безопасность, субсидии, агропромышленный комплекс.*

Z.I.Samadova

**PERSPECTIVE DIRECTIONS OF AGRICULTURE IN AZERBAIJAN**

**Summary**

*It is necessary to achieve the development of agriculture to meet the food needs of the people. The work carried out in this area contributes to the country's economy. The achievements of food security and state reforms in agriculture are widely commented in the article. The article also discusses the state's care for this area for the development of agriculture.*

***Keywords:*** *agriculture, food security, subsidies, agro-industrial complex.*